

*Ramiz İsmayılov*

Bayramlarda qapı-qapı gəzərdik.
Əlimizdə yanan lopa gəzərdik,
Yumurtanı qatar-qatar düzərdik
Taytuşların "cığalını" görmüşəm
Nə tez,keçdi il üstə il qalandı
Xatirələr bir-birin calandı,
Ramiz,bəlkə gördüklərin yalandı,
Özünü yox, nağılını görmüşəm.

## *Bitməz*

Təbiətin möcüzəsi, sirri bol
Tilsiminə,hikmətinə əl yetməz.
Yaradanın qəzəbinə tuş gəlib
Qum çölündə ot göyərməz, kol bitməz
Dağ döşündə duman olar, sis olar
Zirvələrdə qar xarlayar, buz olar.
Səksən olar,doxsan olar, yüz olar,
Əvvəl-axır ömür bitər,yol bitməz,
Ramiz heyran günəşə də,aya da,
Nur görünür yeddi rəngli boyada,
Kəklik,turac ,qaqqıldaşan qayada,
Şibyə bitər,mamır bitər,gül bitməz.

## *Varsa*

Vurdun yara mənə sən.
Gəl,dərdimə yara, sən
Olma qəlbi qara sən
Nurlu sabahın varsa
Qiyma,canım üzüldü
Sandım həsrət yüz ildi.
Niyə gözün süzüldü
Ayrı "silahın" varsa
Bəsdi, bu sitəm yetər,
Köksümdə dərd-qəm bitər,
Ay Əzrayıldan betər
Tanrın, Allahın varsa
Ramizdən küsdün daha,
Əlini üzdün daha
Üz çevir qibləgaha
Bir qibləgahın varsa.

## *Görmüşəm*

Nənəm vardı...nağıl filan bilməzdi.
Kökəsini,qoğalını görmüşəm
Babam mənlə çiling-ağac oynardı
Tumarını, sığalını görmüşəm
Bağımızdan meyvə dərib yeyərdim
Ağacların budağını əyərdim,
Almam vardı-"qəndalması"deyərdim
Əzgilini ,zoğalını görmüşəm

## *Törəyər*

Qoç olmaz yetim quzudan
Qoç oğlundan qoç törəyər.
Bar gözləmə çürük qozdan
Törəsə də puç törəyər

Min ilərdi belə olub,
Mərd meydanda bəlli olub,
Dəli oğlu dəli olub,
Gicbəsərdən gic törəyər.

Görmüşük başdan binadan
Çörək qədri bilməz nadan,
Zatı qırıqdan ,zinadan
Bic doğular, bic törəyər.

Ramiz,sızlat sarı simi,
Söz sındırar hər tilsimi,
Halal olsan arı kimi,
Bir bəsləsən üç törəyər.

## *Qocalıq*

Qocalığın yazılmayan qanunu
Pozulmayan fərmanı var, hökmü var
Elə dərddi dağ götürməz, fil çəkməz
Belə ağır şələmi var, yükmü var?

Qoca ömrü ilmə-ilmə sökülər,
Yetim uşaq kimi boynu bükülər,
Xəzan vurar,xəzəl olub tökülər
Pöhrələnib boy atmağa kökmü var?!

Ramiz,batıb hənirin də,ünün də,
Hədər getdi ilin,ayın,günün də,
Şux gözəllər naz eləmir önündə,
Bundan betər cəzamı var,görkmü var?!

## *Qalıb*

Azalıb dostların sayı
İkisi,ya biri qalıb.
Yaxşılar torpaqın payı
Nanəciblər diri qalıb.

Ədalət.-2017.-5 dekabr.-S.7.